***
.



## Fransua VOLTER:

Adamları haqqımızda yaxşı danışmağa məcbur etməyin tək yolu – özümüzlə yaxşı davranmaqdır.

***

Azadlığı və həqiqəti sevməyən biri güclü ola bilər, amma heç vaxt böyük ola bilməz.

***

Azadlıq – haqqımız yetəni eləməkdir, ürəyimiz istəyəni yox.

***

Başqa dili öyrənmək bir-iki ilin işidir, amma ana dilini yaxşı bilməkçün ömrün yarısı gərək.

***

Biz dünyanı gələndə necəydisə, gedəndə də yenə eləcə – mənasız, yamangünlü görürük.

***

Böyük işlər heç zaman böyük maneələrsiz olmur.

***

Dilin bir böyük əhəmiyyəti də budur ki, fikirlərimizi onun köməyilə gizlədə bilirik.

***

Ən gözəl fikir belə pis ifadə olunan zaman dəyərini itirir.

***

Fəlsəfə odur ki, dinləyən danışanı anlamır, danışan da nə dediyini bilmir.

***

Gördüyün bir işdən həzz alırsansa, bu, elə azadlıq deməkdir.

***

Gülüncə çevrilmiş bir şey artıq təhlükəli ola bilməz.

***

İnsanlar xəsisdən heç nə qopara bilmədikləriyçün ona nifrət eləyirlər.

***

İnsanlar yeməyə çörəkləri, yatmağa yerləri olan kimi düşünməkdən də vaz keçirlər.

***

Kütlə ki mühakiməyə qalxdı, hər şey havayıdır.

***

Qədim Romada senzura olsaydı, Ovidinin, Yuvenalın, Siseronun dahiyanə əsərləri bizə gəlib çatmazdı.

***

Qoy gənclər dünyanı xəyal elədikləri kimi görsünlər, böyüyəndə onsuz da necə olduğunu görəcəklər.

***

Lağlağı ki anladıldı, lağlağı olmaqdan qalır.

***

Öləndən sonra hara düşmək istərdim: cənnətə, ya cəhənnəmə? Cənnətin havası yaxşıdı, ancaq cəhənnəmdə də dost-tanış məclisi o qədər xoş ki...